# Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Efiopiyaya səfəri çərçivəsində bir sıra görüşlər keçirib

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Efiopiyaya səfəri çərçivəsində BMT-nin Afrika üzrə İqtisadi Komissiyasının icraçı katibinin müavini Abdalla Hamdok ilə görüşüb. Görüşdə Abdalla Hamdok BMT-nin Afrika üzrə İqtisadi Komissiyasının fəaliyyəti, həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib.

Elmar Məmmədyarov bu il Azərbaycan ilə BMT arasında uğurlu tərəfdaşlığın 25 illiyinin qeyd olunduğunu bildirərək, xüsusilə müstəqilliyin ilk illərində BMT və onun ixtisaslaşmış qurumlarının ölkəmizə dəstəyinin yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. Ölkəmizin yoxsulluğun aradan qaldırılması, təhsil, səhiyyə, məşğulluq, gənclər və idman siyasəti sahələrində əldə etdiyi nailiyyətlərdən, "ASAN xidmət" təcrübəsindən, regional əməkdaşlıq, sülh və çiçəklənməyə verdiyi töhfələrdən danışan E.Məmmədyarov BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin milli səviyyədə həyata keçirilməsi istiqamətində atılan addımlardan danışıb. Nazir Azərbaycanın uğurlu "ASAN xidmət" təcrübəsini Afrika qitəsi ölkələri ilə bölüşməyə hazır olduğunu və bu xüsusda Afrika İttifaqında "ASAN xidmət"in təqdimatının keçirildiyini qeyd edib.

Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olarkən Afrika qitəsinin problemlərinə xüsusi diqqət ayırdığını deyən E.Məmmədyarov Xarici İşlər Nazirliyinin nəzdində Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin qitədə həyata keçirdiyi humanitar layihələrə toxunub, Azərbaycan ilə Afrika ölkələri arasında iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyini vurğulayıb.

Nazir BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) 2017-2019-cu illər üzrə üzvü kimi Azərbaycanın bu sahədə təşkilatın fəaliyyətinə töhfə verdiyini diqqətə çatdırıb.

Söhbət zamanı Azərbaycan ilə BMT-nin Afrika üzrə İqtisadi Komissiyası arasında əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb və Cənub-Cənub əməkdaşlığının əhəmiyyəti qeyd olunub.

* * *

Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Efiopiya Federativ Demokratik Respublikasına rəsmi səfəri çərçivəsində bu ölkənin Prezidenti Mulatu Teşome ilə görüşüb.

Görüşdə Elmar Məmmədyarov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Efiopiyanın dövlət başçısına çatdırıb.

Efiopiya Prezidenti Mulatu Teşome Azərbaycan Prezidenti İlham Əliyevin səmimi salamlarına görə təşəkkürünü bildirib, onun da salamlarının və ən xoş arzularının dövlətimizin başçısına çatdırılmasını xahiş edib.

Prezident Mulatu Teşome iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsinə önəm verdiklərini və ikitərəfli əməkdaşlığı daha da genişləndirmək üçün səylərin artırılmasının, habelə yüksək səviyyəli qarşılıqlı səfərlərin vacibliyini vurğulayıb. O, çoxsaylı efiopiyalı tələbənin müxtəlif sahələr üzrə Azərbaycanda ali təhsil aldıqlarını qeyd edərək, həmin məzunların iki ölkə arasında körpü rolunu oynaya biləcəyini deyib.

Elmar Məmmədyarov minlərlə afrikalı tələbənin Azərbaycanın ali təhsil müəssisələrində təhsil aldığını, ölkəmizin bu sahədə Efiopiya ilə əməkdaşlığı davam etdirməyə hazır olduğunu bildirib. Nazir ali təhsil müəssisələrimiz, o cümlədən xarici tələbələr üçün əlverişli təhsil imkanları barədə Efiopiya Prezidentinə məlumat verib.

Efiopiyanın Afrika qitəsində, eyni zamanda, Afrika İttifaqı təşkilatında əhəmiyyətli mövqeyinə toxunan Elmar Məmmədyarov Azərbaycanın bu ölkə ilə ikitərəfli münasibətləri inkişaf etdirməkdə maraqlı olduğunu bildirib. Nazir ikitərəfli müqavilə-hüquq bazasının inkişaf etdirilməsinin əhəmiyyətini xüsusi vurğulayıb.

Söhbət zamanı Elmar Məmmədyarov ölkəmizin inkişafı və əldə etdiyi nailiyyətlərdən, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən regional layihələrdən, habelə Şimal-Cənub, Şərq-Qərb nəqliyyat dəhlizlərinin perspektiv imkanlarından danışıb. Nazir, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verərək, ölkəmizin ədalətli mövqeyini Prezident Mulatu Teşomenin diqqətinə çatdırıb.

Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin gücləndirilməsi, ticarət dövriyyəsinin artırılması yolları, habelə kommunikasiya və logistika sahəsində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Efiopiyaya səfəri çərçivəsində Afrika İttifaqı Komissiyasının sədri Musa Faki Mahamat ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Afrika İttifaqı arasında əməkdaşlığın inkişaf etdirilməsi yollarına dair fikir mübadiləsi aparılıb. Afrika İttifaqı yanında müşahidəçi statusunda Azərbaycanın son illər ərzində təşkilatla əlaqələrinin genişlənməsi, qarşılıqlı səfər mübadilələrinin həyata keçirilməsi məmnuniyyətlə qeyd olunub.

Elmar Məmmədyarov Azərbaycan və Afrika İttifaqı ölkələri arasında iqtisadi, təhsil, səhiyyə, informasiya texnologiyaları və humanitar sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensialın mövcudluğunu diqqətə çatdırıb. O əlavə edib ki, SSRİ dövründə Azərbaycanda təhsil almış Afrikadan olan gənclər bu gün qitə ilə Azərbaycan arasında dostluq körpüsü rolu oynayırlar.

Nazir Azərbaycanın 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü, 2017-2019-cu illər üzrə isə BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü kimi Afrika qitəsinin problemlərinə xüsusi diqqət ayırdığını vurğuladı. O həmçinin Azərbaycan ilə UNESCO arasında fəaliyyət göstərən Etimad Fondu vasitəsilə Keniya, Tanzaniya, Uqanda və Liberiyada qızların təhsili üzrə layihələrin uğurla həyata keçirildiyini qeyd edərək Afrika İttifaqı Komissiyasının sözügedən layihələrə tərəfdaş qismində cəlb edilməsinin vacibliyini bildirib.

"ASAN xidmət" konsepsiyası haqqında danışan Elmar Məmmədyarov Azərbaycanın bu uğurlu təcrübəni Afrika qitəsi ölkələri ilə bölüşməyə hazır olduğunu və "ASAN xidmət"in Afrika İttifaqında təqdimatının keçirildiyini qeyd edib.

Azərbaycanın kosmik, informasiya və kommunikasiya texnologiyaları sahəsində əldə etdiyi nailiyyətlərindən danışan nazir, Afrika İttifaqı ölkələrinin Azərbaycanın süni peyklərinin imkanlarından yararlana biləcəyini nəzərə çatdırıb.

Ölkəmizin Ermənistanın hərbi təcavüzü və bir milyondan artıq qaçqın və məcburi köşkün problemi ilə üzləşməsinə baxmayaraq, effektiv idarəçilik, sosial-iqtisadi və insan kapitalının inkişafı baxımından əldə etdiyi nailiyyətlərindən danışan Elmar Məmmədyarov dayanıqlı inkişafın təməli kimi insan resurslarının inkişafı məqsədilə paytaxt Bakının "Expo 2025"ə namizəd şəhər olduğunu bildirib.

Musa Faki Mahamat Azərbaycanın Afrika İttifaqı ilə əməkdaşlığın inkişaf etdirilməsinə verdiyi önəmi, qitə üzrə humanitar layihələri dəstəkləməsini və beynəlxalq təşkilatların Afrika üzrə layihələrinə cəlb olunmasını yüksək qiymətləndirildiyini diqqətə çatdırıb. O, Afrika İttifaqının da Azərbaycan ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb və bu səfərin ikitərəfli əlaqələrin daha da inkişafına təkan verəcəyinə əminliyini ifadə edib.

Görüş əsnasında qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Efiopiyaya səfəri çərçivəsində Afrika İttifaqının iqtisadi məsələlər üzrə komissarı Viktor Harrison və sosial məsələlər üzrə komissarı Amira Elfadil ilə görüşüb.

Görüşdə Afrika İttifaqı ilə Azərbaycan arasında siyasi, iqtisadi, logistika, elm-texnika, təhsil, gənclər siyasəti, idman sahələrində əməkdaşlıq üçün geniş imkanların olduğu bildirilib.

Tərəflər hələ SSRİ dövründə Afrika qitəsindən çoxsaylı tələbələrin müxtəlif sahələr üzrə Azərbaycanda təhsil aldıqlarını qeyd edərək bu sahədə əməkdaşlığın davam etdirilməsinin vacibliyinə diqqəti çəkiblər.

Görüşdə Azərbaycanın multikulturalizm ənənələri, dinlərarası və mədəniyyətlərarası dialoq prosesinə verdiyi töhfələr, bu xüsusda Bakıda keçirilən humanitar və mədəniyyətlərarası dialoq forumlarında Afrika İttifaqının və üzv dövlətlərin yüksək səviyyəli nümayəndə heyətlərinin iştirakı məmnuniyyətlə vurğulanıb.

Həmçinin Xarici İşlər Nazirliyi nəzdində Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin digər tərəfdaş təşkilatlarla birlikdə Afrika qitəsində həyata keçirdiyi humanitar layihələr, Azərbaycan ilə UNESCO arasında fəaliyyət göstərən Etimad Fondu vasitəsilə Keniya, Tanzaniya, Uqanda və Liberiyada qızların təhsili üzrə layihələrin uğurla həyata keçirildiyi qeyd edilərək Afrika İttifaqı Komissiyasının sözügedən layihələrə tərəfdaş qismində cəlb edilməsinin vacibliyi bildirilib.

Görüşdə qarşılıqlı maraq doğuran sahələrdə təcrübə mübadiləsinin aparılması və nümayəndə heyətlərinin səfərlərinin təşkil olunması barədə razılıq əldə edilib.

* * *

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Efiopiyaya rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Vorkene Qebeyehu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı nazirlər "Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Efiopiya Federativ Demokratik Respublikasının Xarici İşlər Nazirliyi arasında məsləhətləşmələrə dair Anlaşma Memorandumu"nu imzalayıblar.

Görüşdə Azərbaycanla Efiopiya arasında münasibətlərin inkişafından məmnunluq ifadə edilib, yüksək səviyyəli səfərlərin ikitərəfli əməkdaşlığa mühüm töhfə verdiyi vurğulanıb. Bu xüsusda Vorkene Qebeyehu Elmar Məmmədyarovun Efiopiyaya səfərini yüksək qiymətləndirib və iki ölkə arasında müxtəlif səviyyələrdə təmasların artırılmasının əhəmiyyətinə toxunub.

Elmar Məmmədyarov Vorkene Qebeyehunu Azərbaycana rəsmi səfərə dəvət edib. Efiopiyalı nazir dəvəti məmnuniyyətlə qəbul edib.

Nazirlər iki ölkə arasında münasibətlərin hazırkı vəziyyətinə və gündəlikdə duran məsələlərə nəzər salıblar. Eyni zamanda, ikitərəfli əməkdaşlığı inkişaf etdirmək üçün müqavilə-hüquq bazasının genişləndirilməsinin zəruriliyini vurğulayıblar.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin vacibliyi qeyd edilib və iki ölkənin beynəlxalq gündəlikdə duran məsələlərə münasibətdə oxşar mövqedən çıxış etdiyi bildirilib.

Tərəflər iki ölkə arasında iqtisadi-ticarət əlaqələrinin inkişaf etdirilməsinə nəzər salıblar. Ticarət əlaqələrinin təşviqi və biznes dairələri arasında birbaşa təmasların qurulması üçün Azərbaycan iş adamlarından ibarət nümayəndə heyətinin Efiopiyaya səfərinin təşkil olunması və birgə biznes forumların keçirilməsinə dair razılığa gəlinib.

Elmar Məmmədyarov Azərbaycandan Cibutiyə və digər Afrika ölkələrinə hava yolu ilə yüklərin daşındığını, Cənubi Asiya ilə Şimali Avropanı birləşdirən Şimal-Cənub nəqliyyat dəhlizinin perspektiv imkanlarını qeyd edərək iki ölkə arasında nəqliyyat və logistika sahəsində də əməkdaşlıq üçün potensialın olduğunu nəzərə çatdırıb.

Həmçinin nazirlər iki ölkə arasında humanitar və təhsil sahələrində əməkdaşlığın inkişaf etdirilməsi yolları ətrafında fikir mübadiləsi aparıblar. Nazirlər efiopiyalı tələbələrin müxtəlif sahələr üzrə Azərbaycanda ali təhsil aldığını qeyd edərək, bu əsnada qurulmuş əlaqələrin davam etdirilməsinin vacibliyini vurğulayıblar.

Elmar Məmmədyarov həmkarına Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqlar, Azərbaycanın beynəlxalq ictimaiyyət və ATƏT-in Minsk qrupunun həmsədrləri ilə birlikdə münaqişənin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həlli istiqamətində atdığı addımlar barədə məlumat verib.

Görüşdən sonra Elmar Məmmədyarov Efiopiyaya səfəri və keçirilmiş görüşlər barədə yerli KİV-nin suallarını cavablandırıb.

***AZƏRTAC***

Azərbaycan.- 2017.- 11 noyabr.- S.9.